**Nikahda olan vətəndaşların bağladıqları nikah müqaviləsinin nümunəvi forması**

**N İ K A H    M Ü Q A V İ L Ə S İ**

______ şəhəri _____ 20__-ci il

Bir tərəfdən, bundan sonra «ər» adlandırılan Azərbaycan Respublikası vətəndaşı _______________________________, digər tərəfdən, bundan sonra «arvad» adlandırılan Azərbaycan Respublikasının vətəndaşı _________________________________ (bundan sonra tərəflər adlandırılacaq) könüllü və qarşılıqlı razılıq əsasında nikaha daxil olarkən istər nikah müddətində, istərsə də nikahın pozulması hallarında qarşılıqlı əmlak hüquq və vəzifələrinin tənzimlənməsi məqsədi ilə aşağıdakılar haqqında bu nikah müqaviləsini imzaladılar:

**3.Müqavilənin predmeti:**

1.10 Tərəflər razılığa gəlirlər ki, kimin gəlirləri hesabına əldə edilməsindən asılı olmayaraq, ər-arvad tərəfindən birgə nikah dövründə əldə edilmiş bütün əmlaklar (bu müqavilə ilə müəyyən edilmiş istisnalar nəzərə alınmaqla) üzərində ərin mülkiyyət hüququ, arvadın isə istifadə hüququ müəyyən edilir. Hazırki müqavilədə və ya bu müqaviləyə olan əlavələrdə xüsusi ilə qeyd edilmiş ayrı-ayrı əmlak növləri üzərində digər hüquqi rejim tətbiq oluna bilər.

1.11 Tərəflərin hər birinə nikaha daxil olmamışdan əvvəl məxsus olan əmlak, eləcə də nikah dövründə onların biri tərəfindən hədiyyə şəkilində və ya vərəsəlik qaydasında, həmçinin digər əvəzsiz əqd üzrə əldə edilmiş əmlak hər birinin ayrıca mülkiyyəti hesab olunur.

1.12 Birgə nikah dövründə əldə edilmiş əmlaklara tərəflərin hər birinin əmək, sahibkarlıq və ya intelektual (əqli) fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri aiddir.

1.13 Qiymətli əşyalar və digər dəyərli əmlaklar istisna olmaqla, səxsi istifadə əşyaları (paltar, ayaqqabı və sair) birgə nikah dövründə ümumi gəlir hesabına əldə edilmiş olsa belə onların üzərində bu əşyaları istifadə edən tərəfin hüquqları tanınır.

1.14 Xüsusi təyinatlı gəlirlər (maddi yardımın məbləği, şikəstlik, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ) üzərində onların ödənildiyi tərəfin hüquqları tanınır.

1.15 Tərəflərin ümumi əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir. Tərəflərin ümumi əmlak üzərində sərəncam əqdini onlardan biri həyata keçirirsə, bu halda güman edilir ki, o, digərinin razılığı ilə hərəkət edir. Tərəflərdən biri digərinin razılığı olmadan əmlak üzərində sərəncam əqdi bağlamışsa və əqdin iştirakçısı olan digər tərəf bu cür razılığın olmadığını bilirdisə və ya bilməli idisə, əqd bağlanmasına razılığı olmayan tərəfin tələbi ilə məhkəmə tərəfindən etibarsız hesab oluna bilər. Tərəflərdən birinin daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya) qeydiyyata alınan əqdlərin bağlanması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı lazımdır. Tərəflərdən birinin bu barədə notariat qaydasında təsdiq olunmuş razılığı olmadıqda, o, əqdin həyata keçirildiyindən xəbər tutduğu və ya xəbər tutmaq imkanı olduğu gündən 1 il ərzində həmin əqdin etibarsız sayılmasını tələb etmək hüququna malikdir.

1.16 Birgə nikah dövründə istənilən zaman ər-arvad qarşılıqlı razılaşma əsasında hazırki müqavilə

ilə müəyyən edilmiş birgə mülkiyyət rejimini dəyişə bilərlər.

**4. Ər-arvadın hüquq və vəzifələri:**

2.1 Hər bir tərəf birgə mülkiyyətdə və digər tərəfin mülkiyyətində olan əmlaklara tələb olunan qayğı göstərməyə, əmlakların məhv olması və zədələnməsinin, eləcə də məhv olması və zədələnməsi təhlükəsinin qarşısının alınması üçün tələb olunan bütün tədbirləri görməyə, o cümlədən bu məqsədlə istər ümumi gəlirlər, istərsə də digər gəlirlər hesabına tələb olunan xərcləri ödəməyə borcludur. Hər bir tərəf istər nikah dövründə, istərsə də nikah pozulduqdan sonra digər ərin (arvadın) bu müqavilə və qanunvericiliklə müəyyən edilmiş hüquq və qanuni mənafelərini qorumalıdır.
2.8 Tərəflər təhlükəli müqavilələrin bağlanmasından çəkinməyə borcludurlar. Təhlükəli müqavilələr dedikdə, öhdəliklərin yerinə yetirilməməsi nəticəsində əmlakın əsaslı hissəsinin itirilməsinə və ya tərəflərin gəlirlərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb ola biləcək hallar nəzərdə tutulur.
2.9 Tərəflərdən hər biri digər tərəfin mülkiyyətində olmaqla nikahdan əvvəl əldə edilmiş əmlaklardan təyinatı üzrə istifadə etmək hüququna malikdir.
2.10 Tərəflərdən hər biri birgə nikah dövründə mülkiyyətində olmaqla nikahdan əvvəl əldə edilmiş əmlak üzərində öz istədiyi kimi sərəncam vermək hüququna malikdir.
2.11 Tərəflərdən hər biri öz kreditorunu (kreditorlarını) hazırki nikah müqaviləsinin bağlanması, dəyişdirilməsi və pozulması barədə məlumatlandırmağa borcludur.
2.12 Nikah ləğv edildikdə, pozulduqda, etibarsız sayıldıqda və xitam olduqda, eləcə də tərəflərdən hər hansı biri və ya hər ikisi öldükdə və ya məhkəmə qaydasında ölmüş elan edilidkdə birgə nikah dövründə və ondan əvvəl əldə edilmiş bütün əmlaklar (hər hansı bir istisna olmadan) tərəflərin birgə nikahından doğulmuş ________________ mülkiyyətinə keçir.
2.13 Nikah ləğv edildikdə, pozulduqda, etibarsız sayıldıqda və xitam olduqda ____________________ birgə nikah dövründə və ondan əvvəl əldə edilmiş bütün əmlaklardan yalnız onun pasport qeydiyyatında olduğu mənzildən istifadə hüquqların saxlanılır, lakin bu mənzilə də mülkiyyət hüququ ______________________________ keçir.
2.14 Bu müqavilənin 2.7 və 2.8-ci bəndlərində nəzərdə tutulmuş hallardan hər hansı biri baş verdikdə və birgə nikah dövründə və ondan əvvəl əldə edilmiş bütün əmlaklar (hər hansı bir istisna olmadan) tərəflərin birgə nikahından doğulmuş _________________ mülkiyyətinə keçdikdən sonra ____________________________ tam fəaliyyəti qabiliyyəti əldə edənədək __________________________ onun üzərində qəyyum təyin ediləcəkdir.
2.15 ______________________________ qəyyum olduğu müddət ərzində ___________________________ mülkiyyətində olan bütün əmlakların üzərində sərəncam vermək, yəni onu satmaq, bağışlamaq, dəyişmək, girov (ipoteka) qoymaq və ya hər hansı bir formada özgəninkiləşdirmək, həmçinin bu əmlakdan öz xeyrinə hər hansı bir hərəkət etmək hüququ olmayacaq, bu əmlakdan əldə olunmuş bütün gəlirlər ________________________ ehtiyaclarına sərf olunacaqdır.

**3. Ər-arvadın məsuliyyəti:**

3.5 Tərəflərdən hər biri öz üzərinə götürdüyü öhdəliklərə görə kreditorlar qarşısında özünə məxsus olan əmlak həddində məsuliyyət daşıyır.

3.6 Tərəflərdən birinin digərinin razılığı olmadan digər tərəfin bağladığı əqdlərə görə məsuliyyət daşımır.
3.7 Mülkiyyətə tələb yalnız tərəflərin ümumi öhdəliyi olduğu hallarda yönələ bilər. Bu əmlak kifayət etmədikdə tərəflər qeyd olunan öhdəliyə görə özlərinin şəxsi əmlakları ilə məsuliyyət daşıyırlar.
3.8 Tərəflərin birgə nikahından doğulmuş yetginlik yaşına çatmayan uşaqlarının vurduğu zərərə görə onların məsuliyyəti mülki qanunvericiliklə müəyyən edilir.

**4. Müqavilənin qüvvəyə minməsi, dəyişdirilməsi və ləğv edilməsi:**

4.6 Bu müqavilə imzalandığı andan qüvvəyə minir.
4.7 Bu müqavilənin notariat qaydasında təsdiqlənməsi tələb olunur.
4.8 Tərəflər istənilən vaxt bu müqaviləyə əlavə və dəyişiklik etmək hüququna malikdir. Bu müqaviləni icra etməkdən birtərəfli qaydada imtina edilməsinə yol verilmir.
4.9 Nikah müqaviləsində nikah pozulduqdan sonrakı dövr üçün nəzərdə tutulan vəzifələr istisna olmaqla, nikaha xitam verilməsi anında nikah müqaviləsinə də xitam verilir.
4.10 Bu müqavilənin qüvvədə olduğu müddət ərzində tərəflər arasında yaranmış bütün məsələlər əsasən hamılıqla qəbul edilmiş adət və ənənələrə uyğun həll edilir, əks halda mübahisə məhkəmə qaydasında həll edilir.
4.11 Bu nikah kontraktı iki nüsxədə tərtib edilmiş və hər bir nüsxə tərəflərə verilir.

**5. Tərəflərin imzaları:**

Vət. ______________________________ Şəxsiyyət vəsiqəsi: ________ seriyalı, ______ nömrəli, _______ tarixdə ______________________________ tərəfindən verilmiş, ünvan: ________________________________________________________________________

________________
(imza)

Vət. ______________________________ Şəxsiyyət vəsiqəsi: ________ seriyalı, ______ nömrəli, _______ tarixdə ______________________________ tərəfindən verilmiş, ünvan: ________________________________________________________________________

________________
(imza)